**Sevinc Rafiq qızı ABBASOVA**
*Qərbi Kaspi Universiteti, magistr*
E-mail: abb_njj@mail.ru

**Tərانə Əli qızı POLADOVA**
*Qərbi Kaspi Universiteti, k.ü.f.d., dos. müəllim*

# İŞĞALDAN AZAD EDİLMİŞ LAÇIN VƏ QUBADLI RAYONLARINDA İPƏKÇİLİYİN İNKİŞAFI ÜÇÜN TUT TİNGLƏRİ BAĞLARININ SALINMASI

**Xülasə:** Məqalədə işğaldan azad olunmuş Laçın və Qubadlı rayonları ərazisində kəndtəsərrüfatının inkişaf etdirilməsindən danışılır. Bərpa olunmuş ərazilərdə iqtisadiyyatın inkişaf etdirilməsi və əhalinin məşğulluğu üçün ipəkçiliyin inkişaf etdirilməsi və bu məqsədlə tut bağlarının salınması məsləhət görülmüşdür.
Statistik məlumatlardan aydın olduğu kimi, işğal altında olan ərazilərdə vaxtilə baramaçılıqla məşğul olunmuş və baramaçılıq əhalinin yüksək gəlir mənbələrindən biri olmuşdur.
***Açar sözlər:*** Laçın və Qubadlı rayonları, azad edilmiş torpaqlar, dövlət dəstəyi, baramaçılıq, tut bağları

**UOT:** 63.43.81
**JEL:** L 89
**DOI:** doi.org/10.54414/bibo3112

## Giriş

Ölkə iqtisadiyyatında neft amilindən asılılığın azaldılması istiqamətində davamlı şəkildə aparılan islahatlar mövcud potensialdan səmərəli istifadə edilməsi, ixrac-yönümlü məhsulların istehsalının stimullaşdırılması və iqtisadiyyatın ənənəvi sahələrinin, o cümlədən aqrar sektorun inkişafı üçün geniş imkanlar yaradıb. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində ölkədə aqrar sektorun davamlı və rəqabət qabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib. Respublikamızda qeyri-neft sektorunun inkişafı fonunda kənd təsərrüfatı sahələri arasında özünəməxsus yeri olan, qədim ənənələrə malik baramaçılıq və ipəkçiliyin inkişafı bu baxımdan xüsusi önəm daşıyır (şəkil 1).

## Əsas mətn

Azərbaycanda baramaçılığın tarixi çox uzaq keçmişə - V əsrə gedib çıxır. XII əsrdən isə Azərbaycan ipəyi Böyük İpək Yolu ilə Avropa və Asiya ölkələrinə ixrac olunmağa başlamışdı. Tədqiqatçıların bildirdiklərinə görə, XI əsrin 70-ci illərində Şamaxı şəhərində olmuş İtaliya səyyahı Kontarini yazırdı ki, bu şəhərdə yüksək keyfiyyətli ipək parçalar hazırlanır. Həmin dövrlərdə Şamaxıdan Rusiyaya, İraqa, Suriyaya və başqa ölkələrə ipək aparılırdı. XVI-XVII



Şəkil 1. İpəkqurdu baraması

əsrlərdə də Şirvan ipək istehsalına görə Yaxın Şərqdə öz üstünlüyünü saxlaya bilmişdi. Şirvan ipəyinin xeyli hissəsi Asiya və Avropanın bir çox ölkələrinə göndərilirdi. Bundan əlavə, məhsulun xeyli hissəsi ölkədə ipək toxuculuğunu təmin etmək üçün istifadə edilirdi. XVII əsrin 30-cu illərində Azərbaycana səfər etmiş Adam Olearinin verdiyi məlumata görə, burada hər il 10-20 min tay xammal toplanırdı.

Ondan 3000 tay Şirvanın, 2000 tay Qarabağın payına düşürdü [hər tayın çəkisi təxminən 5,5 pud idi]. Deməli, hər il Şirvanda 16,5 min pud,

Qarabağda isə 11 min puda qədər xammal istehsal olunurdu[1].

***Baramaçılığın və ipəkçiliyin inkişafında əsaslı dönüş.*** Azərbaycanda baramaçılığın və ipəkçiliyin inkişafında əsaslı dönüş keçən əsrin 70-ci illərinin əvvəllərinə təsadüf edir. O vaxt ölkəmizə rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü iləNazirlər Soveti "Azərbaycan Respublikasında ipəkçiliyin gələcək inkişafına dair tədbirlər haqqında" 1971-ci il 3 mart tarixli qərar qəbul etmişdi. Bu qərar baramaçılığınvə ipəkçiliyin inkişafına böyük təkan verməklə, onun maddi-texniki bazasını, sənaye potensialını genişləndirmiş və nəticədə, respublikada barama tədarükü 36,1 faiz artmışdı. Kolxoz və sovxozlara məxsus istifadəyə yararsız torpaq sahələrində, yol kənarlarında, şəhər və qəsəbələrdə çoxlu tut tingləri əkilməsi baramaçılığın yem



Şəkil 2. Baramadan ipək parçanın toxunması

bazasını əhəmiyyətli dərəcədə möhkəmləndirmişdi. Eyni zamanda, bu sahədə elmi-tədqiqat işlərinə diqqət artırılmışdı. Həmin illərdə respublikamızda ildə 5-6 min ton yaş barama və 350-400 ton xam ipək istehsal olunur, on milyonlarla kvadrat metr müxtəlif çeşidli ipək parça toxunurdu. Barama istehsalı ilə 150 mindən çox kəndli ailəsi məşğul olurdu. Azərbaycanın ipək sənayesində 14 mindən çox, o cümlədən "Şəki-İpək" kombinatında 7 min nəfərə yaxın daimi işçi çalışırdı. Respublikamız barama istehsalına görə keçmiş sovetlər birliyində Özbəkistandan sonra ikinci, istehsal olunan ipəyin keyfiyyətinə görəisə birinci yeri tuturdu. Şəki İpək Kombinatı SSRİ-nin 75 müəssisəsinə ipək parça, 84 müəssisəsinə isə ipək sap göndərirdi. Şəki ipəyindən hazırlanan parçalar Yaponiya, İsveçrə, İtaliya və digər xarici ölkələrə ixrac olunurdu. Azərbaycanda ipəkçilik kompleksi geniş bir şəbəkə təşkil edirdi. Buraya Elmi Tədqiqat İpəkçilik İnstitutu, Qax və Gəncə damazlıq ipəkçilik stansiyaları, 7 barama toxumu zavodu, 30-dək rayon barama qurutmaxanası, 80-ə yaxın barama tədarükü və ilkin emalı məntəqələri, 4 tinglik təsərrüfatı, 31 ipəkçilik idarəsi, Ordubad barama açmafabriki, Qarabağ və Şəki ipək kombinatları daxil idi. İpəkçiliyin elmi əsaslarının işlənibhazırlanması ilə məşğul olan Azərbaycan Elmi-Tədqiqat İpəkçilik İnstitutu super elit ipəkqurdu toxumları əldə etmişdi. Damazlıq stansiyaları isə elit ipəkqurdu toxumları yetişdirilməsi ilə məşğul olur, barama toxumu zavodları baramaçılıqla məşğul olan təsərrüfat subyektlərini yüksək keyfiyyətli sənaye tut ipəkqurdu toxumları ilə təchiz edirdi. Yerli strukturlar isə yem bazasını möhkəmləndirmək və kümçülərə lazımi dəstək vermək vəzifəsini həyata keçirirdilər. Ordubad Baramaaçma fabriki, Qarabağ və Şəki İpək kombinatları (şəkil 2) kimi iri emal müəssisələri əsasən xam ipək, eşmə ipək, cod ipək parça istehsalı və satışı ilə məşğul olurdu. Qarabağ İpək Kombinatının yerləşdiyi Xankəndi şəhərinin işğal olunması, Ordubad Baramaaçma Fabrikinin bağlanması və ölkədə yeganə olan Şəki İpək Kombinatınınfəaliyyətində çətinliklərin yaranmasısonrakı dövrlərdə ölkədə barama istehsalının da kəskin azalması ilənəticələndi. İpəkçilikdə tənəzzülün qarşısını almaq, baramaçılıq rayonlarında əhalinin məşğulluğunu yaxşılaşdırmaq üçün Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli Sərəncamı ilə "Şəki-İpək" ASC-yə maliyyə dəstəyi göstərildi. Buna baxmayaraq, yeni iqtisadi şəraitə uyğunlaşa bilməyən baramaçılıqda yaş barama istehsalı 1992-ci ildən (5200 ton) etibarən azalmağa başladı. 2015-ci ildə ölkədə cəmi 246 kiloqram yaş barama istehsal edilmişdi. Xüsusən ipəkqurdunun bəslənməsi üçün müvafiq yerlərin, yem bazasının sıradan çıxması kənd əhalisinin barama yetişdirilməsinə marağını azaltmışdı. İstehsal olunan barama respublikada ipəkçilik sənayesi sahəsində yeganə fəaliyyət göstərən "Şəki İpək" ASC-nin tələbatını ödəmədiyi üçün müəssisənin fəaliyyətinin təmin edilməsi məqsədi ilə Özbəkistan və İrandan barama alınırdı.

İpəkçilikdə dönüş-müasir infrastruktur yaradılır, dövlət dəstəyi gücləndirilir. Azərbaycanda ipəkçiliyin inkişaf etdirilməsi üçün böyük potensialın mövcud olduğunu nəzərə alaraq,

Prezident İlham Əliyevin tapşırığına əsasən, 2016-cı ildən başlayaraq Kənd Təsərrüfatı Nazirliyi tərəfindən respublikamızda ipəkçiliyin müasir infrastrukturunun yaradılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında" 2016-cı il 15 sentyabr tarixli və "İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 16 noyabr tarixli sərəncamları bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsinə, barama istehsalı ilə bağlı əhalinin məşğulluğunun artırılmasına və sosial rifahının daha da yaxşılaşdırılmasına şərait yaradıb [3]. Həmçinin dövlətimizin başçısının "Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 19 may tarixli və "İpəkçiliyin inkişafına dövlət dəstəyinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" 2017-ci il 6 oktyabr tarixli sərəncamlarına uyğun olaraq, Qax Damazlıq İpəkçilik Stansiyasının bərpası, əlavə istehsal sahələrinin yaradılması və müasir avadanlıqlarla təchiz olunması, habelə tut [şəkil 3] tinglərinin və barama toxumlarının tədarük edilməsi və məhsul istehsalçılarına əvəzsiz verilməsi məqsədi ilə maliyyə vəsaiti ayrılıb. Barama istehsalı ilə məşğul olan şəxslərə emal müəssisələrinə təhvil verdikləri baramanın hər kiloqramına görə 5 manat məbləğində subsidiyanınverilməsi bu sahəyə marağı artırıb. Kənd Təsərrüfatı Nazirliyitərəfindən Çindən müqavilə əsasında 2016-cı ildə 1750, 2017-ci ildə 6000 qutu yüksək keyfiyyətli ipəkqurdu toxumları tədarük edilərək Qax Damazlıqİpəkçilik Stansiyasında inkubasiyaya qoyulub, barama toxumlarından 99-100 faiz səviyyəsində yüksək keyfiyyətli barama qurdları əldə edilib və respublikanın 31 rayonunun 739 kəndini əhatə edən 3013 kümçü ailəsinə əvəzi ödənilmədən paylanılıb. Nəticədə 2016-cı ildə 2007-ci ildən bəri ilk dəfə olaraq respublikada 70,7 ton, 2017-ci ildə isə 245 ton və ya 2016-cı ilə nisbətən 3,5 dəfə çox yaş barama məhsulu istehsal edilib. Ölkədə baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə 2016-cı ilin dekabr ayında Çindən 1,5 milyon tut (çəkil) tingi tədarük edilib, respublikanın 37 rayonunda 150 hektara yaxın sahədə yeni intensiv tipli tut bağlarının salınması təmin olunub.



Şəkil 3. Çəkil tut tinglərinin yetişdirilməsi

Kənd təsərrüfatına yararlı torpaq sahələrindən səmərəli istifadənin vacibliyini nəzərə alaraq, yerlərdə yeni tut bağlarının salınması zamanı tut tinglərinin kənd və tarla daxili yolların kənarlarında və kümçülərə məxsus həyətyanı sahələrdə tövsiyə olunan əkin sxeminə riayət olunmaqla əkilməsinə üstünlük verilib. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2017-ci ilin noyabr ayında Çindən daha 1 milyon tut tingi gətirilib və respublikanın 38 rayonunun kümçülərinə əvəzi ödənilmədən paylanılıb. İpəkqurdunun yem bazasının yaradılması ilə yanaşı, barama toxumçuluğunun təşkili üzrə infrastrukturun qurulmasının xüsusi əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarı ilə Qax Rayon Damazlıq Stansiyası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilib, stansiyanın əsasnaməsi hazırlanaraq hökumətə təqdim olunub [7]. Artıq stansiyanın ərazisindəki mövcud binaların əsaslı təmirinə, əlavə istehsal korpuslarının, inzibati və yardımçı binaların inşasına başlanılıb. Burada yeni yaradılmış tut ipək qurdu cins və hibridlərinin yüksək keyfiyyətli ilkin materialının (superelit qrenanın) hazırlanması, rayonlaşdırılmış cinslərinin çoxaldılması, onların bioloji və texnoloji göstəricilərinin yaxşılaşdırılması, barama toxumu zavodlarının və kümçülərin ipəkqurdunun sənaye qrenası ilə təmin edilməsi nəzərdə tutulur. Dövlət Proqramının icrası ölkədə ipəkçiliyin kompleks inkişafına təkan verəcək. Azərbaycanda qədim ənənələri olan baramaçılığın və ipəkçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi, ixrac potensialının artırılması, kənd yerlərində məşğulluğun təmin

edilməsi və nəzərdə tutulan digər işlərin vahid proqram əsasında həyata keçirilməsi məqsədilə 2017-ci il noyabrın 27-də "AzərbaycanRespublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı" təsdiqlənib .

Dövlət Proqramında Azərbaycanda 2025-ci ilədək yaş barama istehsalı həcminin 6 min tona çatdırılması nəzərdə tutulur. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planında Azərbaycanda barama istehsalçılarının assosiasiyasının yaradılmasıda əksini tapır. Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri bu işi 2018-2019-cu illərdə başa çatdırmalıdırlar. Tədbirlər Planına baramaçılıq və ipəkçilik sahəsində klaster yanaşmanın tətbiqinin dəstəklənməsi, yeni məhsuldar ipəkqurdu cinsləri və hibridlərinin yaradılması, ilkin toxumçuluğun təşkili istiqamətində elmi tədqiqat işlərinin genişləndirilməsi, baramaçılıqla məşğul olan təsərrüfat subyektlərini sənaye tut ipəkqurdu toxumu ilə təmin edəcək toxumçuluq [qren] zavodlarının yaradılmasının dəstəklənməsi də daxil olunub.

Statistik məlumatlardan aydın olduğu kimi işğal altında olan ərazilərdə vaxtilə baramaçılıqla məşğul olunub və baramaçılıq əhalinin yüksək gəlir mənbələrindən biri olmuşdur. Bolsulu çayların olduğu ərazilərdə geniş tutçəkil bağlarının olması baramaçılığın inkişafı üçün gözəl bir zəmin yaratmışdır. İqtisadiyyatın yüksəldilməsi və yerli əhalinin məşğulluq mərkəzlərinin yaradılması üşün bu ərazilərdətut bağlarının salınması və bununla əlaqədar baramaçılığın inkişaf etdirilməsi dövlət proqpamında nəzərdə tutulmuşdur (cədvəl 1). Qubadlı rayonunda barama tədarükü məntəqəsinin, qurutmaxananın tikintisi planlaşdırılır, həmçinin meyvə bağlarının salınması nəzərdə tutulur. Qubadlıda baramaçılıq və bağçılıq ənənələrinin bərpa edilməsi Kənd Təsərrüfatı Nazirliyinin strateji hədəfləridir. Vaxtilə rayonda barama bəslənilib, çox dəyərli ipək alınıb[8]. Həmçinin meyvə istehsalı ilə bağlı böyük potensial var. Burada gələcəkdə istehsal olunan məhsullar ixrac yönümlü ola bilər (Report İnformasiya agentliyi, 26 Oktyabr, 2021).

**Cədvəl 1.**

**İşğaldan azad olunmuş torpaqlarda çoxillik əkmələrin növlər üzrə proqnozlaşdırılan strukturu, ha**

| | Albalı, gilas | Fındıq | Xurma | Nar | Alma | Armud | Alça, gavalı | Çəkil | Cəmi meyvə | Üzüm |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | - | - | 500 | 500 | - | - | - | 700 | **1,700.0** | **2,300.0** |
| Ağdam | 600 | 200 | 200 | 200 | - | - | 400 | 200 | **1,800.0** | **500.0** |
| Cəbrayıl | 200 | - | 100 | 200 | - | - | 300 | - | **800.0** | **1,200.0** |
| Füzuli | 500 | 100 | - | 500 | - | 100 | 800 | - | **2,000.0** | **600.0** |
| Kəlbəcər | - | - | - | - | 200 | - | - | 300 | **500.0** | - |
| Qubadlı | 200 | | 200 | 1000 | 200 | 100 | 300 | 500 | **2,500.0** | **400.0** |
| Laçın | - | - | 200 | 200 | - | - | 100 | - | **500.0** | - |
| Zəngilan | 100 | - | 500 | 500 | 100 | 200 | 300 | 500 | **2,200.0** | **1,000.0** |
| **Cəmi** | **1600** | **300** | **1700** | **3100** | **500** | **400** | **2200** | **2200** | **12,000.0** | **6,000.0** |

***Mənbə:** Aqrar Tədqiqatlar Mərkəzi*

Dövlət Proqramının həyata keçirilməsi, ümumilikdə, ölkədə ipəkçiliyin və ona xidmət edən alt sahələrin kompleks inkişafı istiqamətində aparılan işlərin daha da gücləndirilməsinə təkan verəcək.

**Nəticələr**

1. İşğaldan azad olunmuş Laçın və Qubadlı rayonlarının ərazisinin fiziki-coğrafi mövqeyi, təbiəti, flora və faunası, təbii ehtiyatları və təsərrüfat sahələri araşdırılmış, burada inkişaf etdirilmiş bitkiçilik sahələri tədqiq edilmişdir və məlum olmuşdur ki, işğaldan əvvəlki illərdə bu ərazilərdə əsasən taxılçılıq, üzümçülük, tütünçülük, bağ və bostan bitkilərinin yetişdirilməsi əhalinin əsas məşğuliyyət sahələrindən olmuş, bağçılıq yaxşı inkişaf etdiyi üçün baramaçılıq və tut bağlarının salınması da əhalinin gəlir mənbələrindən biri kimi yaxşı inkişaf etmişdir.

2. Laçın və Qubadlı rayonlarının ərazisində yerləşmiş qoruq və yasaqlıqlar olan nadir bitki, ağaclar-qırmızı palıd, uzunömürlü xan çinarlar, saqqızağacı, çoxlu dərman bitkiləri və heyvanların növləri verilməklə işğal müddətində qoruq və yasaqlıqlara edilən ekoloji terrorun miqyası göstərilmiş, işğal və müharibələrin ekosistemə yetirdiyi zərərlər təhlil edilmiş, ekoloji terrorun davam etdiyi ərazilər və çirklənmiş çayların durumu da qeyd edilmişdir.

3. İşğaldan azad olunmuş ərazilərə ediləcək dövlət dəstəyi, qəbul edilmiş proqramlar , ekoloji sistemin və dağıdılmış təsəsrrüfatların bərpası istiqamətləri göstərilmiş,gələcək planlar və perspektivlərin proqnozları müəyyən edilmiş, gələcəkdə bu ərazilərdə ekoloji təmizlənmə aparıldıqdan sonra taxılçılıq, üzümçülük, tütünçülük, çəkil-tut bağlarının salınması, bağ və bostan bitkilərinin əkilməsi nəzərdə tutulmuşdur.

4. Çay ətrafı zonalarda su anbarlarının yaradılması və çəltik əkinlərinin bərpa olunması da planlaşdırılmış, münbit torpaqlı ərazilərdə çəkil-tut bağlarının salınması ilə əhalinin əsas məşğuliyyətlərindən biri olan baramaçılığın inkişaf etdirilməsi də qeyd olunmuşdur.

5. İşğal zamanı ekoloji terrora və müharibə zamanı silah, mərmi və bombaların partladılmasından çirklənməyə məruz qalmış ərazilərdə torpaqların təmizlənməsindən sonra hansı üsullarla tədqiqi edilməsi yolları göstərilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abbasov V.H. “Aqrar iqtisadiyyat”, Bakı, 2017, 79 s., 3-468.
2. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
3. Azərbaycan Respublikasında barama-çılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün DÖVLƏT PROQRAMI, 27 noyabr 2017.
4. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəz-ləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı.
5. Babayev A.H., Babayev V.A. “Ekoloji kənd təsərrüfatının əsasları”, dərslik, Bakı, 2017, 383 səh.
6. Cəlilov Ə. Y. Əliyev, Ə. R. T. İ. İsmayılov və başqaları. “Kənd təsərrüfatı və ekoloji böhran”, Gəncə 2018.
7. Fikrətzadə F.F., Hacıyeva S.İ. “İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfati sahəsinin bərpasi istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdirilmasi”, Kənd Təsərrüfatı İqtisadiyyatı jurnalı, Bakı-2020, № 4 [34], səh. 23-38.
8. Kəlbəcər-Laçın iqtisadi rayonunun pasportu, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, Bakı-2017.

**Севиндж Рафик кызы АББАСОВА**
*Западно-Каспийский Университет, магистрант*
*E-mail:: abb_njj@mail.ru*

**Тарана Али кызы ПОЛАДОВА**
*Западно-Каспийский Университет, д.ф. по с.х.н., доц., преподаватель.*

# СОЗДАНИЕ САДОВ ТУТОВЫХ САЖЕНЦЕВ ДЛЯ РАЗВИТИЯ ШЕЛКОВОДСТВА В ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ЛАЧИНСКОМ И ГУБАДЛИНСКОМ РАЙОНАХ

**Резюме:** В статье рассматривается развитие сельского хозяйства в освобожденных от оккупации Лачинском и Губадлинском районах. В целях развития экономики и занятости населения на реабилитированных территориях рекомендуется развивать шелководство и закладывать для этой цели тутовые сады.

Как видно из статистических данных, когда-то на оккупированных территориях практиковалось коконирование, и оно стало одним из самых высоких источников дохода для населения.
**Ключевые слова:** Лачинский и Губадлинский районы, освобожденные земли, государственная поддержка, коконирование, тутовые сады

**Sevinj Rafik ABBASOVA**
Western Caspian University, master's degree
E-mail: abb_njj@mail.ru

**Tarana Ali POLADOVA**
Western Caspian University, Ph.D in Agriculture, Associate professor, teacher

## CREATION OF MULBERRY- SEEDING ORCHARDS FOR THE DEVELOPMENT OF SILKWORM BREEDING IN LACHIN AND GUBADLI- REGIONS RELEASED FROM THE OCCUPATION

**Summary:** The article deals with the development of agriculture in Lachin and Gubadli regions, released from the occupation. In order to develop the economy and employment of the population in the rehabilitated territories, it is recommended to develop sericultureand plant mulberry orchards for this purpose.
As it is evident from statistical data, in the occupied territories, people were engaged in cocooning in former times, and it became one of the high income sources of the population.
**Keywords:** Lachin and Gubadli regions, liberated lands, state support, cocooning, mulberry orchards.

**Daxil olub:** 16.03.2022